# Azərbaycan Respublikasının Prokurorluğu beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

Finlandiyanın paytaxtı Helsinkidə Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraiyyə Komitəsinin 41-ci iclası keçirilib.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, tədbirdə Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak edib.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətlə davam etdirdiyi müdrik dövlət siyasətinin məntiqi nəticəsi kimi Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra beynəlxalq təşkilatlar, o cümlədən IAP ilə səmərəli qarşılıqlı əməkdaşlığı bu gün də uğurla davam etdirir.

Assosiasiyanın İcraiyyə Komitəsinin iclasının 2002-ci ildə Bakıda keçirilməsi təşkilatla ölkəmiz arasında qarşılıqlı əməkdaşlığı yeni müstəviyə qaldırıb. Beynəlxalq Prokurorlar Assosiasıyası yarandığı gündən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Baş Prokurorluq bu qurumla sıx işgüzar əlaqələr yaradıb. Həyata keçirilmiş səmərəli qarşılıqlı əməkdaşlığın nəticəsi kimi Azərbaycan Respublikası uzun müddətdir Assosiasiyanın ali idarəetmə orqanında - İcraiyyə Komitəsində təmsil olunur.

Ötən müddətdə Assosiasiyanın rəhbər nümayəndələri mütəmadi qaydada Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olub, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, korrupsiyaya qarşı mübarizə sahəsində institusional və cinayət təqibi tədbirləri, o cümlədən "Asan xidmət" mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olub, ölkəmizdə əldə edilmiş nailiyyətləri yüksək qiymətləndiriblər. Həmçinin qurumun internet səhifəsinin rus versiyası ilə yanaşı, Assosiasiyanın antikorrupsiya şəbəkəsinin təsis edilməsi haqqında razılıq əldə edilib. Həmin şəbəkənin saytının idarə olunmasının Azərbaycan Respublikasının prokurorluq orqanlarına həvalə edilməsi və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən uğurla aparılması qurumla Azərbaycan Respublikası arasında yaradılmış səmərəli qarşılıqlı əməkdaşlığın bariz nümunəsidir.

Assosiasiyanın İcraiyyə Komitəsinin iclasında qurumun fəaliyyəti ilə bağlı bir sıra mühüm təşkilati məsələlər, o cümlədən IAP-ın Konstitusiyası və fəaliyyətini tənzimləyən digər normativ sənədlərə əlavə və dəyişikliklər, quruma yeni təşkilati üzvlərin qəbulu məsələləri müzakirə edilib. Habelə Assosiasiyanın ali strukturlarına, o cümlədən idarəetmə orqanı olan İcraiyyə Komitəsinə seçkilər keçirilib.

Əlamətdar haldır ki, dünyanın aparıcı dövlətlərinin prokurorluq orqanlarının rəhbər şəxslərinin təmsil olunduğu İcraiyyə Komitəsinin 41-ci yaz iclasında ölkəmizin ədliyyə və prokurorluq orqanlarının qurumun fəaliyyətinə verdiyi töhfələr, fəal iştirakçılıq və yüksək səviyyəli işgüzar əlaqələr nəzərə alınaraq Azərbaycan Respublikasının nümayəndəsi K.Əliyevin növbəti müddətə üzv seçilməsi məsələsi ilə əlaqədar ilkin qərar qəbul olunub.

Bundan başqa, iclasda Assosiasiyanın 21-ci İllik Konfransının və Ümumi Yığıncağının cari il sentyabrın 11-15-də İrlandiyanın paytaxtı Dublində keçirilməsi qərara alınıb.

Azərbaycan Respublikasının Prokurorluğu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı bundan sonra da uğurla davam etdirəcək.

***AZƏRTAC***